SEBASTYAN PEREZ

İllustrasiyalar:
BENCAMİN LAKOM

# Dünyanın ƏN YAXŞI Anası

Fransızcadan tərcümə:
**Vüsalə Yarıyeva**



QANUN NƏŞRİYYATI

# La MEILLEURE *Maman* du MONDE

*Textes*
SÉBASTIEN PEREZ

*Illustrations*
BENJAMIN LACOMBE



Sebastyan Perezin təsirli uşaq kitabı ana sevgisinin ucalığını və əvəzolunmazlığını poetik dillə tərənnüm edir. Əsər bir uşağın gözü ilə anasının gündəlik qayğılarının, fədakarlığının və sevgisinin necə möhtəşəm bir şey olduğunu göstərir. Müxtəlif məqamlarla ana obrazı həm güclü, həm də şəfqətli şəkildə təqdim olunur. Kitab uşaqlar üçün sevgi, minnətdarlıq və ailə dəyərləri haqqında əhəmiyyətli məlumatlar verir.



# Ön Söz

Bizim hamımızın bir anası var. Kiçik yaralarımızı sağaldan, hava soyuq olduqda isə bizim üstümüzü örtməyə məcbur edən bir anamız var.

Bəs ana nə deməkdir?

Bu çox sadə sualdır, bir uşağı böyütməyin üsulları barədə isə çoxlu cavablar mövcuddur.

Bəs min bir cür anaların hamısı eynidirmi? Xallı maralların, ququ quşlarının və insanların anaları uşaqlarını eyni şəkildə böyüdürlər?

Əgər belə deyilsə, onda dünyanın ən yaxşı anası kim ola bilər?



# XALLI ANA MARAL

Xallı ana maral tək balasını dünyaya gətirəndə onun hələ çarəsiz olduğunu bilir. O, çətinliklə pəncələri üstə dayanır və asanlıqla yırtıcıların qurbanına çevrilə bilər.

Ona görə də bu ana ilk növbədə balasının təhlükəsizliyini təmin etməyə çalışır. Elə etməlidir ki, heç kim onu tapa bilməsin!

Gizlənmək üçün ideal bir yer tapdıqdan sonra balasını orada qoyur. Onun güvəndə olduğundan əmin olub tamamilə arxayınlaşdıqdan sonra çıxıb gedir. O, balasının yanına yalnız onu ana südü ilə qidalandırmaq üçün qayıdacaq.

Bala maral qaçmağı və tullanmağı öyrəndikdən sonra digər marallara qoşulacaq.

Bu, dünyanın ən yaxşı anası deyilmi?





# ANA QUQU

Ana ququ quşu öz bacarığının fərqindədir. Deməli, pis tərbiyə olunmuş balalara sahib olmaqdansa, bu işi bacarıqlı birinə tapşırmağa üstünlük verir!

Uzun və dərin axtarışlar apardıqdan sonra gözünü nümunəvi bir anaya dikir və bir anlıq diqqətsizliyindən istifadə edərək onun yumurtalarından birini yuvadan çıxarır. Sonuncunun bundan xəbəri olmayacağından əmin olan ana ququ quşu həmin o boş yerə öz yumurtasını qoyur və balacasına xoş həyat arzulayır.

Dünyanın ən yaxşı anası ana ququ quşu deyilmi?





**Analarımız Lidia və Mişelə həsr olunur.**
**Benjamin Lakomb və Sebastyan Perez**




**Sebastien Perez. La Meilleure Maman Du Monde**
**Sebastyan Perez. Dünyanın ən yaxşı anası**

Janr: uşaq ədəbiyyatı
Yaş qrupu: 7+
Ölçü: 220x260 mm
Cild: qalın
Səhifə sayı: 64

**Naşir:** Şahbaz Xuduoğlu
**Fransızcadan tərcümə:** Vüsalə Yarıyeva
**Korrektor:** Əyyar Tahir
**İllüstrator:** Bencamin Lakom
**Mətn dizaynı:** Gülnar Məmmədkərimli
**Qapaq dizaynı:** Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-600-02-5



© Qanun Nəşriyyatı, 2026
Published by arrangement with Daniela Bonerba
«Sébastien Perez & Benjamin Lacombe, La meilleure maman du monde
© Editions Margot, 2021